# Rəşad Mehdiyevin yaradıcılığında fəlsəfi düşüncələr

**Reyhan Osmanova**
*Azərbaycan Dövlət Rəssamlıq Akademiyası*
**E-mail:** miss_rey_86@hotmail.com

**Rəyçilər:** sənətş.ü.f.d. G.Ş. Nərimanova,
f.ü.f.d. V.A. Ömərov

**Açar sözlər:** yaradıcı insan, fenomen düşüncə, şərq fəsləfəsi, rənglərin ahəngi
**Ключевые слова:** творческая личность, феноменальное мышление, восточная философия, гармония цветов
**Key words:** creative person, phenomenal thinking, eastern philosophy, the color of the colors

Fırçası yorulmayan yaradıcı insan... Unikal və fenomen düşüncə sahibi olan rəssam... Rəşad Mehdiyev. Rəssamın çəkdiyi əsərlər hissiyyatla qəbul edilən halı özündə ehtiva edən, başa düşülən, bəzən çətin izah edilən və ya izah edilə bilinməyən fenomen əsərlərdir. Bu isə genetik təbiətlə də bağlı olan bir anlayışdır. R. Mehdiyevin rəsmləri insan şüurunun xüsusi mexanizmlərini oyadır, onu düşünməyə və mənəvi zövqə istiqamətləndirir. Rəşad Mehdiyev müasir rəngkarlığımızın secilən nümayəndələrindən biri olmaqla, onun şöhrətini artıran incəsənət xadimlərindən sayılır. Digər tərəfdən, sənətkarın orijinal bədii ifadə tərzi, üslub xüsusiyyətləri və dəst-xətti Azərbaycan incəsənətinin bədii arsenalını zənginləşdirmişdir. Məhz bu cəhətlərə görə müasir sənətşünaslıq elmində sənətkar yaradıcılığının geniş tədqiqinə ehtiyac var.

İnsan obrazlarını fövqəltəbii, qeyri-adi formada çəkən firça ustası müxtəlif janrların yaradıcı sintezinə özünəməxsus yanaşması var. Rəssamın məqsədi, onun bəşər övladına çatdırmaq istədiyi fikirlər əsərlərində toplanıb. Bu incəsənət nümunələri, habelə hər bir rəssamın çəkdiyi əsərlər onun daxili, ruhi aləminin aynasıdır. Onun mənəviyyatının, intellektual səviyyəsinin, dünyagörüşünün göstəricisidir. Bu məqamda dünyagörüşünün müstəsna rolunu qeyd edən A. Şveyster göstərir: “Dünyagörüşü ideyaların özündə mövcudluğumuzun mənası və bəşəriyyətin amalı haqqında düşünə bildiyimiz və nəzərdə tutduğumuz hər şeyi əhatə edir; onlar bizim varlığımızı istiqamətləndirir və dəyərləndirir. Ayrıca bir insanın və cəmiyyətin dünyagörüşü olmayan həyatı yüksək səviyyəli səmtləşmə hissinin patoloji pozuntusu deməkdir” [1, 5].

Çəkilən əsərlər iki tipə, iki formaya malikdir. Bunlardan birincilər göz zövqünü oxşayan, emosiyaların əsasında qurulmuş, elmi düşüncələrin və elmi faktorların əks olunmadığı əsərlər, ikincisi hər hansı bir problemin qoyulması sənətkar fırçası ilə onun həlli yolunun verilməsi, fəlsəfi mahiyyət daşımasıdır.

“Mövzumuzun qəhrəmanı isə zaman xərclədiyi hər bir işdə təkcə emosiyaların əks olunduğu, emosiyaların əsasında qurulmuş, elmi düşüncələrin və elmi faktorların əks olunmadığı əsərlərlə kifayətlənməyin düzgün olmadığı qənaətindədir. Rəşad Mehdiyev bunu da qeyd edir ki, seçilən bir əsəri kütləyə təqdim etmək beyin texnologiyasının, düşüncələrin texnologiyasının məhsuludur. Bəs sən bu düşüncələrin texnologiyasını hansı formada təqdim edə bilirsən?” [2].

İstehsal proseslərini həyata keçirmək üsulu və vasitələri haqqında biliklərin məcmusu,

habelə bu üsulların özü texnologiya adı altında insan şüurunda, təfəkküründə mövcuddur. Bu təfəkkürün zənginliyinə gedən yolsa, kitablardan, mifoloji materiallara olan bələdçilikdən, geniş dünyagörüşündən keçir.

Çağdaş zamanımızın seçilən siması olan R. Mehdiyevin əsərlərində əsas amil müəyyən bir ideyanın və fikrin seçilməsi, onun həlli yolunun araşdırılmasıdır. Yaradıcılıq mühitində seçilmiş bir ideyanın, fikrin bədii həllinin sona qədər, səliqə ilə reallaşdırılması həmin müəllifi sənətkar kimi tanıdır və sevdirir. Bu xüsusiyyət həm sənətkarlar, həm də tənqidçilər tərəfindən həmişə dəyərləndirilmiş və qiymətləndirilmişdir.

Rəssam hər hansı bir problemi açmaqla məşğul olur. Və o anlamalıdır ki, qaldırdığı problemi aça bilib, yoxsa yox. Hər hansı bir məqsədə yönəldilmiş prinsipdən söhbət gedir. Yəni mən nə edim? Qaldırdığım problemin şərhini, açmasını verə bildimi? Əgər həll etmədimsə mən davam edirəm... [2].

Qaldırılan problemin həllində ustad fırçası, fırçanın çəkdiyi yol, rənglər və onların ahəngi rol oynayır.

Mövzu tapmaq üçün ətraf mühitə nəzər yetirmək kifayətdir. Ən əsası və çətini onu görə bilmək və lazımi səviyyəyə kimi çatdırmaqdır. Mövzunun inkişafı bir çox amillərlə bağlıdır. Ən birincisi bilik amilidir. Rəssamın yaratdığı əsərin daha dərin, düşüncəli və rəngarəng prinsiplərə uyğunlaşması məhz biliyə əsaslanır. Rəssamlıq texnologiyası da, şübhəsiz, rol oynayır. Əgər sən, hər hansı bir fikrin heç olmasa müəyyən qismini çatdıra bilirsənsə, demək heç bir problem olmayacaq. Digər tərəfdən mövzudan mövzu yaranır. Dərinə vardıqca, qarşında böyük bir aləm açılır, bu aləmin içində yaşayıb yaratmağa başlayırsan və fırça, kətan üzərində özü səni aparır. Xətt, forma, rəng, gündəlik həyat tərzi, bunlar hamısı rəssamın yaradıcılığı üçün bir vasitə olmalıdır. [4]

R. Mehdiyevin fəlsəfi fikrinin ana xəttini Şərq fəlsəfi, o cümlədən sufi panteist fəlsəfəsi təşkil edir. Biz bu fikri onun “Sufi” adlı əsərində nəzərdən keçirək.

Bu əsərdə yun əba geymiş obrazların simasında əzələ, jest və mimikaların kompleks ifadəsinin köməkliyi ilə sufilərin tərki-dünya olmalarını, dini-mistik təsəvvürlərini görürük. Sufizmə görə həyatın elə ali məqsədi ilahi ilə mənəvi qovuşmaqdır.

Qırmızı rəngin alovu fonunda, qara geyimli başını səmaya doğru uzatmış aqil insan simasında sufinin diqqət çəkən bu ruh halı məhz panteizmdən, şərq fəlsəfəsindən xəbər verir. Obrazın gözlərinin yumulu olmasına baxmayaraq əsərdə bir dinamika var ki, bu dinamika aydın səma ilə təmasdadır. Əsərdə dinamika yaradan isə arxa fonda qırmızı rəngin verilməsidir. Qırmızı rəng kişi rəngi hesab edilir. Bu, həyat rəngidir. Eyni zamanda fəallıq, enerji, dinamizm, güc, mətanət, əzm, həmçinin məhəbbət, ehtiras və qəzəb rəmzidir. Qırmızı ilə ağ rəngin ahəngi təmizlik və harmoniya assosiasiyası yaradır. Burada verilən acıq bənövşəyi rəng çox güclü təsirə malikdir. O, gecə, sirr, mistika, inam, sadəlik, dözümlülük, kədər, fəlakət, rəmzidir. Bu iki obrazın başları üzərində verilən oriqami onları müşayiət edir. Qədim zamanlardan oriqami yapon xalqının həyatında böyük rol oynamışdı. Sintoist məbədlərində keçirilən müxtəlif dini ritualların gedişini müşayiət edərdi. Obrazların əynindəki əbanın qara rəngi isə zülmət, hüzr, ölüm, ağırlıq rəmzidir. Soyuq, qəmli rəng hesab olunur və ağ rəngin, aydınlığın, işığın rəmzi əksidir. O ağırlaşdırır, yanındakı rənglərin təsirini artırır.

Dünyanın fövqündə duran “Vəhdət” adlanan mütləq varlıq aləminin cisimlərində özünü görmək, təzahür etmək istəyir. Aləmin xəlq olunmasının səbəbi məhz bu istəkdir. Başqa yaradılanlardan fərqli olaraq insan ilahinin atributlarını daha yığcam və bütöv əks etdirir [1, 61].

Sufilər dünyanı məkanca məhdud sayır, qəzalı dünyanın üç mərhələdən ibarət olduğunu iddia edirdilər.

Seçilmiş bir insanın çəkdiyi əsərə baxıb onu təhlil etmək, müzakirə aparmaq olduqca məsuliyyətli, dərin və hərtərəfli bilik tələb edir.

Rəşad Mehdiyev Azərbaycan incəsənətinə öz imzasını atmış bir simadır. Orijinal bədii ifadə tərzi, üslub xüsusiyyətləri və dəsti-xətti olan sənətkarın fəlsəfi dünyagörüşünü yaratdığı əsərlərdə görmək olar. Mehdiyevin fəlsəfi düşüncələrini bir qrup əsərlərində, xüsusilə "Sufi" adlı əsərində görürük. O, bu fəlsəfəni rənglərin sintezində, ahəngində axtarır.



Təsvir 1: *Sufi. 60X70 kağız, akvarel, yağlı boya. 2015*

**Məqalənin aktuallığı.** Müasir dövrdə yaradıcı insanların əsərlərində, o cümlədən rəssamlıqda fəlsəfi fikirlərin ifadəsinə daha çox rast gəlmək olur ki, bu da vaxtaşırı elmi müzakirələrə, müxtəlif yanaşmalara gətirib çıxarır. Bu baxımdan məqaləni aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik məqalədə tanınmış rəssamın yaradıcılığındakı nümunələrdə hər hansı bir problemin sənətkar fırçası ilə həlli yolunun verilməsi və fəlsəfi mahiyyətinin açılmasındadır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbə və magistrantlar, eləcə də sənətşünaslar istifadə edə bilərlər.

## Ədəbiyyat


1. Hacıyev Z. Fəlsəfə. Bakı, 2012.
2. https://www.youtube.com/watch?v=jh5Eid4ykj0
3. https://www.youtube.com/watch?v=zkXkTFDHvqQ
4. http://news.milli.az/culture/23410.html

**Р. Османова**

## Философские мысли в творчестве Рашада Мехтиева

## Резюме

Р. Мехтиев — это личность, оставившая неизгладимый след в Азербайджанской культуре. В его произведениях прослеживается философское мировоззрение. Эти философские мысли видны в ряде его работ, особенно в произведении «Суфи». Он искал философию в синтезе и гармонии цветов

**R. Osmanova**

## Philosophical thoughts in the work of Rashad Mehdiyev

## Summary

R. Mehdiev was a person who had an indelible track in Azerbaijan culture. Philosophical outlook of the world is tracing in his works. These philosophical thoughts are reflected in his works, especially in “Suphi”. He searched philosophy in synthesis and harmony of the colors.

**Redaksiyaya daxil olub:** 17.05.2018